# AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNAN RAYONLARINDA MADDİ-MƏDƏNİ İRSİN HAZIRKIVƏZİYYƏTİNƏ DAİR

**Mikayılova Mehriban-** m.ü.f.d., dosent, Memarlıq fakültəsi, Ondokuz Mayıs Üniversiteti, mikayilova2011@yandex.com
**Ağayeva Nərmin-** m.ü.f.d., dosent, Başak Çengiz adına memarlıq fakultəsi, Karabük Üniversiteti, narminaghayeva@karabuk.edu.tr

**Xülasə.** Məqalə Azərbaycanın erməni işğalından azad olunan rayonların maddi-mədəni irsinin hazırkıvəziyyətinin tədqiqinə həsr olunub. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağın işğal olunmuş ərazilərinin memarlıq abidələrinə dəyən zərərlər nəzərdən keçirilir. Cəbrayıl, Zəngilan, Füzuli, Ağdam, Qubadlı, Şuşa, Kəlbəcər, Xocalı şəhərlərinin və digər yaşayış məntəqələrinin tarixi memarlıq tikililərində müşahidə olunan dağıntılardan bəhs edilir. Memarlıq abidələri üzərində aparılan erməni falsifikasiyası göstərilir. Sözü gedən yaşayış məntəqələrinin bərpası zamanı memarlıq irsinin qorunub saxlanması problemləri təhlil olunur.
**Açar sözlər:** maddi- mədəni irs, işğal olunmuş ərazilər, erməni saxtakarlığı, Qarabağın memarlıq abidələri

# ON THE PRESENT STATE OF THE MATERIAL AND CULTURAL HERITAGE OF THE REGIONS OF AZERBAIJAN RELEASED FROM THE OCCUPATION

**Mikayilova Mehriban-** PhD., ass.prof., department of Architecture, Ondokuz Mayıs Üniversitesi, mikayilova2011@yandex.com
**Aghayeva Narmin-** PhD., ass.prof., department of Architecture named Başak Karabük Üniversitesi, Çengiz Mimarlık Fakültesi, narminaghayeva@karabuk.edu.tr

**Abstract.** The article is devoted to the study of the current state of the material and cultural heritage of the regions of Azerbaijan liberated from the Armenian occupation. The damage caused to the architectural monuments of the occupied territories of Karabakh as a result of the occupation by Armenia is considered. The ruins observed in the historical and architectural structures of the cities of Jabrayil, Zangilan, Fizuli, Aghdam, Gubadli, Shusha, Kalbajar, Khojaly and other settlements are considered. The Armenian falsification of architectural monuments is shown. The problems of preserving the architectural heritage during the restoration of these settlements are analyzed.
**Keywords:** material and cultural heritage, occupied territories, Armenian falsification, architectural monuments of Karabakh

**Giriş.** Otuz ilə yaxın müddətdə düşmən tapdağı altında qalan Azərbaycanın Qarabağ bölgəsində erməni vandalları yaşayış yerlərinin ərazilərində çox böyük dağıntılar etmiş və mövcud olan dəyərli maddi-mədəni irsə böyük ziyan vurmuşlar. Bu dağıntılar Qarabağın xüsusən Cəbrayıl, Zəngilan, Füzuli, Ağdam, Qubadlı, Şuşa, Kəlbəcər, Xocalışəhər və kəndlərində və digər yaşayış məntəqələrində müşahidə olunur. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizin memarlıq irsinə dəyən ziyanın həcmi çox böyükdür. Erməni işğalçıları Azərbaycanın 871 yaşayış məntəqəsini, o cümlədən 11 şəhərini, 12 qəsəbəsini, 848 kəndini xarabaya çevirmişlər. İşğal illərində bu məntəqələrdə baş verən kütləvi dağıntılar nəticəsində, tarixi şəhər strukturu, çoxsaylı memarlıq abidələri tamamilə məhv edilmişdir. Məsələn, Cəbrayıl şəhərində yalnız yaşayış evlərinin dağıntılarıvə qəbiristanlıq qalmışdır.

**Əsas hissə.** Azərbaycanın sözü gedən bölgəsindətarixi memarlıq abidələri, o cümlədən qədim alban ibadət yerləri, orta əsr məscidləri, sarayları, yaşayış evləri və digər maddi-mədəniyyət obyektləri işğalçılar tərəfindən falsifikasiyaya məruz qalmış və ya dağıdılmışdır. Bütün bu vandalizm halları, eləcə də memarlıq abidələrinin hissə və fraqmentlərinin erməni işğalçıları tərəfindən söküb aparılması Azərbaycanın mədəni irsinin bütün izlərinin məhv edilməsi və yerli əhalinin bu ərazilərə bir daha qayıtmaması məqsədlərinə xidmət etmişdir.

Keçən işğal illəri ərzində Ermənistan tez bir zamanda Qarabağın demoqrafik xarakterinin dəyişdirilməsi məqsədi ilə işğal etdikləri ərazilərin memarlıq-şəhərsalma istiqamətlərində nəinki heç bir yeni tədbirlər həyata

keçirməmiş, hətta mövcud infrastrukturu da dağıtmışlar. Qarabağın işğal altında qalmış şəhər və digər yaşayış məntəqələrində ermənilər süni məskunlaşdırma siyasəti apararaq, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarına Yaxın Şərq ölkələrindən ermənilər yerləşdirmişlər. Ümumilikdə işğal olunmuş yaşayış məntəqələrində 70-dən çox məscid dağıdılıb, muzeylər qarət edilib, şəhər infrastrukturunun çox hissəsi məhv edilmişdir.

Azərbaycanın işğaldan azad olunan rayonlarında maddi-mədəni irsin hazırkı vəziyyətinə dair. XX əsrin 90-cı illərindən başlayaraq, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana təcavüzü nəticəsində respublika torpaqlarının 20 % çox hissəsi, yəni 17 min kv.km-dən çox ərazisi işğal olunmuş və Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonun (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam), eləcə də Dağlıq Qarabağ regionundan uzaqda, Ermənistanla sərhəddə yerləşən Qazax rayonunun yeddi kəndinin və Naxçıvanın Kərki kəndinin memarlıq abidələrinin qaydına qalmağa imkan tapılmamışdır. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərində milli-memarlıq dəyərlərini, dini və ibadət yerlərini və digər sənət əsərlərini, həmçinin Azərbaycan məxsus toponimlərini, epiqrafik yazıları tədricən məhv edərək və ya mənimsəyərək, mədəni-tarixi abidələrin qəsdən məhv edilməsini və erməniləşdirilməsini həyata keçirirmişlər. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçın-da 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. İşğaldan azad olan ərazilərdə zərər görən mədəni-tarixi abidələr sırasına siklopik memarlıq tikililəri, daş üzərində oymalar, antik qalalar, körpülər, məscidlər, türbələr və digər ibadət yerləri, su dəyirmanları, at-qoç fiqurları, kahalar və digəri daxildir.

Kəlbəcər rayonunda qədim sikkələr, qızıl və gümüş işləmələr, nadir daşlar, xalça və digər əl işlərindən ibarət unikal kolleksiyaya malik Tarix muzeyi, Şuşa muzeyləri, Laçın Tarix muzeyi, Ağdam Tarix muzeyi talan edilərək, sərgi eksponatları digər dövlətlərə daşınmışdır. Bu kimi vandalizm aktları işğal edilmiş ərazilərin Azərbaycana məxsus mədəni irsini dəyişmək üçün müxtəlif üsullarla müşayiət olunmuşdur. Məsələn, işğal illərində Laçın şəhərində erməni kilsəsinin tikintisi üçün buradakı uşaq musiqi məktəbi, kitabxana dağıdılmışdır.

Ermənilərin Azərbaycan maddi-mədəni irsinin saxtalaşdırması üçün istifadə etdiyi digər üsul tarixi abidələrin memarlıq ünsürlərinin erməniləşdirilməsidir. “Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan hökuməti müxtəlif bəhanələrlə məqsədli şəkildə xristianlıq dövrü abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişərək saxtalaşdırır ki, bu da kütləvi şəkildə Alban dövrü abidələrinin ilkin görkəminin itirilməsi və Alban mədəniyyətinin tədricən məhv edilərək tarixdən silinməsinə səbəb olur. Cənubi Qafqazda, xüsusən işğal olunmuş Azərbaycan torpaqlarında tarixi kökə və mədəniyyətə malik olmayan ermənilər süni şəkildə belə iyrənc yollarla özlərinə tarix yaradıb, dünyanı inandırmağa çalışırlar ki onlar bu torpağın əzəli və əbədi sakinləridir” [1].

Məsələn, Şuşa şəhərindəki Saatlı məscidinin (1883-ci il) və Xanlıq Muxtar karvansaralarının (XVIII əsr) üzərindəki İslam dininə aid elementlər və ərəb yazıları erməni xaçı və yazıları ilə əvəz edilmişdir. Yelisey məbədində saxlanılan Alban hökmdarı III Vaçaqanın məzarı və sövmə üzərindəki yazılar, eləcə dəXocavənddə Amaras, Ağdamda Govurqala, Kəlbəcərdə Xotəvəng, Laçında Ağoğlan, Kəlbəcərdə Həsənriz və digər alban abidələri üzərində albanlara məxsus yazılar silinərək və onlardan qalan əşyalar dağıdılraq, bu abidələrişğalçılar tərəfindən falsifikasıya edilmişdir.

Onu da qeyd edək ki, Azərbaycanda erməni falsifikasiyası hələ işğaldan xeyli əvvəl, XIX əsrdə Çar Rusiyası tərəfindən ermənilərin Azərbaycanda məskunlaşması siyasətindən sonra başlamış və sovetlər dövrüsürətlə davam etmişdir. XIX əsrdən etibarən çoxsaylı erməni ailələrinin Qarabağa köçürülməsi və Alban dövlətçiliyi və dininin bu bölgədə öz müstəqilliyinin itirməsi nəticəsində Cənubi Qafqazda xristian dövrünün maddi-mədəni dəyərləri saxtalaşdırılaraq erməniləşdirildi. Belə ki, “alban kilsələrindəki əlyazmalar erməni dilinə tərcümə edilərək, orijinallar məhv edildi, xristian abidələrinin interyerindəki yazıların və bədii daş nümunələrinin formaları dəyişdirildi” [1].

Qafqaz Albaniyasında xristian kilsələrinin və digər dini tikililərin,ziyarət yerlərinin qorunub saxlanması ilə yanaşı, burada İslam dininin yayılması nəticəsində həmin dövrə aid olan 2000-dən çox müxtəlif tarixi və mədəni abidələr, o cümlədən çoxsaylı məscid, karvansara və minarələr inşa olunmuşdur. Quruluşlarında milli özünəməxsusluq və müsəlman şəhərsalma mədəniyyəti biruzə verən Ağdərə, Kəlbəcər, Xocavənd, Şuşa, Xankəndi, Tərtər, Füzuli, Cəbrayıl, Ağcabədi, Laçın, Qubadlı, Zəngilan, Qarabağ şəhərləri məhz İslam dövründə formalaşmışlar. İşğal illəri ərzində erməni vandalları sözü gedən rayonların Alban abidələri ilə

yanaşı qədim antik (Neolit və Tunc) və İslam dövrlərinin abidələrini, o cümlədən dini və xatirə tikililərini də fəal şəkildə dağıdaraq, məhv edirdilər.

İşğal illərində Füzuli rayonunda Neolit və Tunc dövrünün Çıraqtəpə və Qaraqhacı kimi qədim yaşayış yerləri və rayonun Qoçəhmədli, Mərdmli, Qarğabazar kəndlərində məzarlıqlar dağıdılmışdır. Rayonun Babı kəndində yerləşən Şeyx Babı türbə kimpleksi (1273-1274-ci illər) 2020-ci il 29 sentyabr tarixində Qarabağda baş verən döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin törətdiyi geniş miqyaslı təxribatlar nəticəsində ciddi xəsarət almış, türbə kompleksindən bir türbə və zədələnmiş bir minarə salamat qalmışdır. Füzuli şəhərindəki Hacı Ələkbər məscidi (1889-1890-ci illər) 1993-cü ilin avqustunda şəhərin işğalı nəticəsində yararsız vəziyyətə düşmüşdür. Rayonun Qarğabazar kəndinin mərkəzində yerləşən Şah Abbas karvansarası (1681-ci il) kəndin erməni işğalından sonra mal-qara tövləsi kimi xidmət etmişdir. Merdinli kəndində yerləşən XIX əsrə aid məscidlər, Saracıq və Gorazıllı kəndlərindəki XIX əsr körpüləri, "Məşədi Həbib" hamamı (XIX əsr), həmçinin ondan çox kurqan tipli arxeoloji abidələr işğal altında qalaraq və erməni vandalları tərəfindən dağıdılaraq, məhv edilmişdir [2].

27 illik əsarətdən sonra erməni işğalçılarının əsarətindən azad olan Cəbrayıl rayonunun yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuşdur. Rayonun qədim Diri kəndində, Araz çayının sol sahilində, Diri dağlarının bir hissəsinin zirvəsində yerləşən və XII- XIV əsrə aid Qız qalası uzun müddət ermənilərin işğal etdikləri ərazidə yerləşmiş və işğalın ilk illərində bir tərəfi düşmən tərəfindən partladılmışdı və hal-hazırda dağılmış vəziyyətdədir. Şıxlar kəndində türbə (1308-ci il) və digər türbələr də yararsız vəziyyətə gətirilmişdir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dünya əhəmiyyətli abidələr sırasına Cəbrayıl rayonundakı Tunc dövrünün İmanqazantəpə və Qışlaq qum təpələri, rayonun Çələbilər kəndində məscid kompleksi və Xubyarlı kəndində qədim məzarlıq, orta əsrlərin 11 və 15 açırımlı Xudafərin körpüləri və Tunc dövrünün Niftalı kurqanları baxımsızlıq səbəbi ilə qəza vəziyyətinə düşmüşdür. Burada İslam abidələri olan məscidlər, minarələr və s. dağıdılıb yer üzərindən silinmişdir [4,5].

Respublikanın çoxəsrlik tarixini özündə əks etdirən Ağdam rayonunun 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı buranın müxtəlif dövrlərin nadir örnəkləri olan memarlıq abidələri - Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki dünya əhəmiyyətli daşınmaz tarixi-mədəni abidələr sırasına daxil olan XIV əsrə aid (1314-ci il) Qulu Musaoğlu türbəsi, Kəngərli kəndindəki türbə (XIV əsr) və daş abidələr, Papravənd kəndindəki XVII əsrə aid Xanoğlu türbəsi, XVIII əsrin məscidi, Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim türbələri, Ağdamın Abdal-Gülablı kəndindəki hamam binası (XX əsrin əvvəlləri) və b. bu kimi dəyərli tarixi- memarlıq abidələri qəsdən və baxımsızlıq üzündən qismən dağıdılmışdılar. Azərbaycanın ilk şəhər mədəniyyətini özündə əks etdirən nadir abidələr sırasına daxil olan . Orta Tunc dövrünə aid Üzərliktəpə yaşayış yeri ərazisində kurqanlar məhv edilmiş və abidənin ərazisi dəfələrlə yandırılaraq, hərbi təyinat məqsədi ilə istifadə edilmişdir. Ağdam rayonu ərazisində yerləşən Şahbulaq qalası (1751-1752-ci illər) 1993-cü il Qarabağ işğalına qədər qənaətbəxş şəkildə qorunub saxlanmışdır. Erməni işğalı zamanı qala ərazisində yerləşən məscid, hamam və bulaqlar dağıdılmış və qalanın sonrakı təmirindən sonra onun təyinatı dəyişərək kilsə kimi istifadə olunmuşdu. Ağdamın mərkəzində yerləşən Cümə məscidi (1868-1870-ci illər) və onun minarələri də erməni vandalları tərəfindən daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, epiqrafik yazıları silinmişdir. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Cümə məscidinin divarlarının saxlanması mümkün olmuşdur.

Ağdam rayonunun Əbdal və Gülablı kəndlərində yerləşən "Pənah xan İmarəti" məscidlər kompleksi (XVIII əsr), Uğurlu bəy məzarlığı erməni işğalçıları tərəfindən dağıdılmışdır. Ağdam şəhərində yerləşən Pənah xanın imarəti (1738-ci il) şəhər 1993-cü ildə erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra, vandalizmə məruz qaldı (Şəkil 1). 2020-ci ildə Ağdamın erməni işğalından azad edilməsindən sonra bu sarayın bərpası üzlər tədbirlərə başlanmışdır [7-9].

Kəlbəcər rayonunun Vəng kəndi ərazisində, Tərtər çayının sol sahilində yerləşən, qədim Azərbaycan dövləti - Qafqaz Albaniyasının xristian memarlığının ən böyük abidələrindən olan və Qafqaz Albaniyasının süqutundan sonra Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi təyinatını daşıyan"Xudavəng" monastır kompleksi işğal illəri zamanı erməni abidəsi kimi dünyaya təqdim olunmuşdur. 2020-ci ildə işğal edilmiş torpaqlar Azərbaycana qaytarılmasından sonra ermənilərin rayonu tərk etdikləri zaman Xudavəng monastır kompleksdəki xristian incəsənət nümunələri, o cümlədən zınqırov və xaç daşları Ermənistana aparılmış və İrəvan muzeyinin eksponatları sırasına daxil olmuşdur. "Xudavəng" məbədi də

dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Düşmən, abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox etmiş, beləliklə, tarixi saxtalaşdırmağa çalışmışdır. Onlar öz təbliğatlarında bu məbədini erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirlər".

Kəlbəcər rayonunda XIII-XIV əsrlərin Lev qalası (şəkil 2), Moz, Keşdağ və Yuxarı Ayrım kəndlərində qədim məzarlıqlar dağıdılmışdır. Rayonun Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə yerləşən Gəncəsər monastır kompleksi Qafqaz Albaniyası katolikoslarının iqamətgahı kimi fəaliyyət göstərməklə bərabər, burada Alban knyazları Cəlalilər və katolikoslar də dəfn ediliş və onların türbəsi də bu ərazidə yerləşmişdir. Ermənistan silahlı qüvvələrinin işğal illərində bu monastır dünyaya "Qanzasar" erməni monastır kompleksi kimi təqdim olumuşdur. 1993-cü ildə hava hücumu zamanı monastır ətrafındakı binalara ziyan dəymişdir. Birinci Qarabağ müharibəsindən sonra erməni iş adamlarının vəsaiti ilə Gəncəsər monastırında əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmiş, 2000–2002-ci illərdə isə kilsənin altarı, narteks və dam örtüyü yenidən qurulmuşdur. 2012-ci ildə ermənilər sözü gedən kompleksin divarlarının üzərini mərmər daşlarla üzləməyə başlamışdılar. Abidənin həyatində ermənilər tərəfindən aparılan tikinti işləri zamanı onun əvvəlki görkəmi ziyan görmüşdür.Rayonun VI əsrin Müqəddəs Yakob və XIII əsrin Xatirəvəng alban monastırları, Başlıbel və Otaqlı kəndlərindəki məscidlər (XVIII-XIX əsrlər), Seyid Əsədullah, Seyid Əhməd ağa ziyarətgahları ocağı və digər dini və xatirə tikililəri də müəyyən dağıntılara məruz qalmışlar.



**Şəkil 1.** Ağdam şəhərində Pənahəli xanın evi



**Şəkil 2.** Kəlbəcər rayonunda Lev qalası

Xocalı rayonunda aşkar edilən və inşa edildiyi dövrün ideologiyasını nümayiş etdirən maddi mədəniyyət eksponatları olan dolmenlər və digər qədim daş abidələr, eləcə də antik dövrə aid daş qutu qəbirlər, XIV əsrə aid kurqanlar, XIV əsrin türbələri erməni vandalizminə məruz qalmışlar, Qədim Xocalı-Gədəbəy mədəniyyətinin nümunəsi olan Xocalı kurqanlarını işğalçılar yer üzündən silmişlər. Xocalının erməni işğalından sonra tapdaq altında qalan tarixi-dini memarlıq abidələri sırasına rayon ərazisindəki Əsgəran qalası (XVIII əsr), Şuşa, Çanaxçı, Xaşmaz, Xansıx, Armudlu kəndlərində yerləşən Alban məbədləri (X-XIII əsrlər), Xocalı kəndində Günbəz, Qoç və yəhərşəkilli qəbir daşları, Qədim tarixə malik olan Alban abidələri, Meşəli kəndində "Börgün qayasında olan Alban kilsəsi, "Yeddikilsə" Alban kilsəsi, "Durpasuda olan Alban kilsəsi, "Balaca suda olan Alban kilsəsi", Teymurləngin qalası ciddi ziyan görmüşdür [10,11].

Təkcə Qarabağın deyil, bütün Azərbaycanın tarixi-mədəni mərkəzi olan qədim Şuşa şəhərində ümumilikdə 850 memarlıq və arxeoloji abidə, onların arasında səkkiz bucaqlı türbə, Pənah xan (Şuşa) qalası (1752-ci il) və Gəncə, İrəvan və Ağoğlan qapıları, Xan qızı Natəvanın evi (XVIII əsr), Mamayı məscidi və bulağı, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarası, Culfalar məscidi (XIX əsr), Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Qarabağ xanlığının yaşayış evləri, ictimai tikililərin interyerlərində divar naxışlarının nümunələri və s. mövcud idi. Təkcə Qarabağın deyil, bütün Azərbaycanın tarixi-mədəni mərkəzi olan qədim Şuşa şəhəri işğal illərində tamamən boşalmış, buradakı məscidlər (Yuxarı və Aşağı Gövhərağa məscidləri) və digər mədəni-tarixi abidələr, o cümlədən Molla Pənah Vaqifin məqbərəsi, Natəvanın sarayı, Bülbülün evi, Üzeyir Hacıbəyovun evi dağıdılmış və talan edilmişdir.

Şuşanın Ermənistan tərəfindən işğal müddətində ənənəvi olaraq 17 məhəllənin hər birində yerləşən 17 məscid dağıdılmış və 17 bulağın hamısı qurudulmuşdur. Ermənilər Mamayı bulağının görünüşünü dəyişmiş, ətrafındakı tikilinin üzərindəki ərəb yazılarını silib üstünü təzə hazırlanmış xaçlarla örtmüşdülər. 1854-cü ildə tikilən Şor bulaq abidəsinin fasadarı dəyişdirilib və yanında restoran binası tikilmişdir. Şuşanın Saatlı, Yuxarı və Aşağı Gövhərağa, Cümə məscidləri talan edilmiş, minarələri dağıdılmışdı. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərinin divarlarını salamat saxlamaq mümkün olmuşdur. Qarabağ xanlığının banisi Pənahəli xanın Şuşa şəhərinin tarixi mərkəzində yerləşən sarayı (XVIII əsr) da işğal illərində tamamilə dağıdılaraq, erməni vandalizminə məruz qalıb. Bu abidənin yalnız xarici divarları, qüllələrin bir hissəsi, bir də giriş tavanı salamat qalmışdır. O cümlədən Molla Pənah Vaqifin məqbərəsi, Natəvanın sarayı, Bülbülün, Üzeyir Hacıbəyovun evləri dağıdılmış və talan edilmişdir. Eləcə də Şuşada qədim qum və daş qəbiristanlıqlar dağıdılmışdır. 1992-ci ildə ermənilər Şuşanı işğal edən zaman Hacı Quluların malikanəsi(1849-ci il) top atəşi nəticəsində sarayın əhəmiyyətli hissəsi dağıdılmış, yalnız mülkün tağvari girişi olan əsas divarı və yuxarı mərtəbələrə qalxan pilləkənlər salamat qalmışdır (şək.3).

Mehmandarovlar ailəsinə məxsus Mehmandarovların malikanə kompleksinə (XVIII əsr) Şuşanın işğala məruz qaldığı illərdə ciddi ziyan dəymiş, kompleksin tikililərinin əksəriyyəti məhv edilmişdir (şək.4). Kompleks ərazisindəki Mehmandarovların kiçik yaşayış binasını ermənilər Şuşa tarix muzeyinə, məscidi isə Geologiya muzeyinə çevirmişlər. Hal-hazırda Mehmandarovların malikanə kompleksində və digər dağıdılan memarlıq abidələrində təmir-bərpa işləri aparılır.

Laçın rayonunun ərazisində yerləşən Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, o cümlədən dəXII-XIII əsrlərin Məlikəjdər türbəsi, Quşçu kəndində “Uşaq qalası”, “Böyük bulaq” abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761-ci il), işğal altında qalan dəyərli memarlıq abidələridir. Ağoğlan çayının sahilində, Azərbaycan-Ermənistan sərhəd xətti yaxınlığında yerləşən V-VI əsrlərə aid Ağoğlan alban monastırının kilsəsi erməni diasporunun maliyyə dəstəyi ilə əsaslı təmir edilmişdir. Rayonun Qarıqışlaq kəndində məscid və Zabux kəndində qədim məzarlıq dağıdılaraq, yandırılmış və talan edilmişdir.

Zəngilan rayonunun Qıraq Muşlan, Malatkeşin, Babaylı və İkinci Ağalı kəndlərində məscidlər, Babaylı və Şərifan, Cahangirbəyli kəndlərində orta əsr məzarlıqları dağıdılmış və talan edilmişdir. Zəngilan şəhərində yerləşən “İmam Hüseyn” məscidi (XVII - XVIII əsrlər) hazırda erməni vandalları tərəfindən dağıdılmışdır. Rayonun Hacallı kəndindəki dairəvi bürc (XIV əsr),.Şərifan kəndindəki sərdabə (XIII—XIV əsrlər), Məmmədbəyli kəndindəki türbə (1305-ci il), Yenikənd kəndində XIV əsrə aid sərdabə, rayonun Bartaz kəndi ilə Vejnəli kəndi arasında yerləşən Bartaz qız qalası erməni vandalları tərəfindən müxtəlif səviyyədə zədə görmüşlər.



**Şəkil 3.** Şuşa şəhəri. Hacı Quluların mülkü



**Şəkil 4.** Şuşa şəhəri. Mehmandarovların malikanəsi

Qubadlı rayonu ərazisində onlarla tarixi-memarlıq abidəsi erməni vandalları tərəfindən dağıdılıb, yandırılıb, dini abidələr donuz tövləsi kimi istifadə olunmuşdur. Rayonun qədim daş dövrünə aid abidələri sırasında Bərgüşad çayı sahilində yerləşən mağaranı, yerli əhalinin dini inanc yeri olan “Ağ kaha” və “Qara kaha” mağaralarını, Balahəsənli, Əliquluuşağı kəndlərində və Gavur dərəsində mağara məbədlərini, Tunc dövrünə aid abidələr sırasında isə Muradxanlı kəndində “Maltəpə” yaşayış məskənini, Teymur Müskanlı və Əliquluuşağı kəndləri ətrafında siklopik qalaları, kurqanları, Qalaça, Qız qalası, Koroğlu qalası, Qubadlı

şəhərinin mərkəzində "Xırman yeri" təpəsi və digər tarixi yerləri qeyd etmək olar. Bu tarixi abidələrin əksəriyyəti işğal illərində hərbi məntəqə kimi istifadə edilmiş və ya dağıdılmışdır. Qayalı və Məmər kəndlərində qədim məzarlıqlar və məscid qismən dağıdılmışdır, Dəmirçilər kəndindəki türbələr (XIII—XIV əsrlər), Hacı Bədəl körpüsü, Əliquluuşağı kəndində Laləzar körpüsü (1867-ci il) kimi abidələrin vəziyyəti işğaldan əvvəlki kimidir.

Xocavənd rayonunda yerləşən və Qafqaz Albaniyasının - Azərbaycanın xristian memarlığının dəyərli abidələrindən olan Amaras alban monastırı (IV əsr) hazırda Sülməramlı Qüvvələrinin nəzarəti altına keçmişdir. Rayonun digər çox saylı alban məbədləri, eləcə də Ağhullu, Kuropatkina, Düdükçü, Salakatin və Tuğ kəndlərindəki qədim məzarlıqlar və başqa maddi-mədəni abidələr erməni işğalçıları tərəfindən falsifikasiya və talan edilmişdir. Xocavənd rayonunun Azıx və Salakətin kəndləri arasında yerləşən dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. İşğal dövründə, 1999-cu ildən başlayaraq, həm erməni, həm də onların dəvət etdikləri digər ölkələrin arxeoloqları bu tarixi mağarada qeyri-qanuni tədqiqatlar həyata keçirmişlər və onu özünküləşdirməyə çalışmışlar. Qədim nadir abidələr sırasına daxil olan sözü gedən mağara işğal illərinin başlanğıcında ermənilərin hərbi sursat anbarı kimi də xidmət etmişdir [12].

Ermənistan Respublikası 1992-1993-cü illərdə Qarabağ ərazilərini işğal etdikdən sonra, qanunsuz olaraq, Azərbaycanın daşınmaz mədəniyyət abidələrinin memarlıq quruluşunda və interyerində də dəyişikliklər aparmış, divar yazılarını dəyişmiş, abidələrnin divarları üzərindəki çoxsaylı daş yazıları, eləcə də alban memarlığına məxsus bir sıra ornament və simvolları tamamən pozmuş, onlardan bəzilərini isə tanınmaz vəziyyətə salmışlar. Bu ərazilərdə erməni vandalları qanunsuz arxeoloji tədqiqatlar aparmış, dağılmış kəndlərdə yeni kilsələr tikmiş, toponimləri dəyişdirmişlər. Onlar planlı şəkildə Azərbaycanın madir maddi-mədəniyyət nümunələrini mənimsəyərək, ərazilərin erməniləşdirilməsini həyata keçirmişlər. İşğal edilən Azərbaycan ərazilərdəki yaşayış yerlərindən yüz minə yaxın muzey eksponatı, eləcə də bədii yazı nümunələri Ermənistana daşınmışdır.Laçın, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Şuşa və işğaldan azad olunmuş digər bölgələrdə dövlət qeydiyyatında olan mədəni-tarixi abidələrinin ümumi sayı, hazırkı vəziyyəti və bu abidələrə gətirilən xələl miqyasları olduqca böyükdür.

Hazırda Azərbaycanın tarixi-memarlıq abidələrinə və digər tarixi-mədəni irsinə qarşı erməni vandalizminin qabarıq şəkildə təzahürünün və bununla bağlı tarixi həqiqətlərin aşkarlanması, dünya ictimaiyyətində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv informasiyanın formalaşdırılması, təxirəsalınmaz həllini tələb edən erməni falsifikasıyasının sübut edilməsi aktual məsələlərdən biridir. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, erməni daşnak təşkilatlarının bu istiqamətdə apardıqları saxtalaşdırma tədbirləri, "erməniləşdirmə" prosesi və onunla bağlı digər aktual məsələlərin elmi baxımdan kompleks və sistemli tədqiqi və buna dair araşdırmaların aparılması prioritet istiqamət kimi ön plana çıxmalıdır.

Hərbi işğalın nəticəsi olaraq, ölkənin mədəni-tarixi irsinin qəsdən məhv edilmə siyasəti həm Azərbaycan, həm də dünya mədəniyyətinə maddi-mənəvi ziyan gətirmişdir. Şuşa və Qarabağın digər yaşayış məntəqələrinin mədəni görünüşünün və arxeoloji xüsusiyyətlərinin qəsdən dəyişdirilməsi və burada arxeloji qazıntıların aparılması Ermənistan işğalçılarının bu ərazilərin və abidələrin Azərbaycana məxsus olma xüsusiyyətlərinin aradan qaldırılması kimi məqsədli fəaliyyətin əyani şəkildə sübut edir. Qarabağın işğal olunmuş ərazilərində ermənilər tərəfindən saxtalaşdırılan memarlıq abidələrinin öz tarixlərinə qovuşması həllini gözləyən vacib məsələlərdəndir [13,14].

Mədəni-tarixi dəyərlərin mühafizəsi və bununla da vətandaşların mədəni hüquqlarının təmin olunması beynəlxalq hüquq normaları ilə tənzimlənir. "16.12 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, 14.05.1954-cü il tarixli "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası, 19.121954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16.11.1972-ci il tarixli YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası, 2012-ci ildə Parisdə keçirilən YUNESKO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması" üzrə Komitəsinin səkkizinci sessiyasında qəbul edilmiş sənəd və başqa beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunub saxlanması vacibliyini irəli sürür".

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq müqavilələrə, eləcə də sözü gedən konvensiyalara (Haaqa Konvensiyasının Birinci və İkinci Protokollarına və b.) qoşulmuş, öz milli qanunvericiliyini məhz beynəlxalq hüquq normalarına uyğun formalaşdırmışdır. Həmin konvensiyaya əsasən

hərbi münaqişələr zamanı hər bir dövlət öz və qarşı tərəfin ərazilərində yerləşən mədəni dəyərlərin mühafizəsini, memarlıq, sənət, tarixi abidələrin, arxeoloji qazıntıların və digər daşınan və daşınmaz mədəni irsin qorunmasını iştirakçı dövlətlərin vəzifəsi kimi qoyur. Qeyd etdiyimiz kimi, Ermənistan sözü gedən Haaqa və "Paris Konvensiyalarının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın maddi-mədəni sərvətlərini talamışdır.

İşğaldan azad olan Qarabağ ərazilərində təhlükəsizliyin təmin edilməsi, infrastrukturun yenilənməsi və demoqrafik problemlərin həllindən sonra, burada turizmin təşkili üçün bir sıra kompleks layihələrin həyata keçirilməsi real görünür. Həyata keçirilən işlər çərçivəsində bütün ölkə əhəmiyyətli abidələrin bərpasına başlanmışdır. Hələ işğaldan əvvəl turizm-rekreasiya sahəsindəki geniş inkişaf potensialı baxımından fərqlənən Qarabağ və ətraf rayonlar öz qədimliyinə və tarixi-mədəni abidələrin nadirliyinə görə tarixi turizm və etnoturizm zonası kimi inkişaf edə biləcək. Artıq işğaldan azad edilən ərazilərdə infrastrukturun qurulması tədbirlərinə başlanıb. Qarabağın turizm potensialının dünyaya tanıdılması istiqamətində, bölgənin turizm imkanlarından faydalanma işlərinə başlanılıb. Qarabağ bölgəsinin işğaldan azad edilmiş rayonlarının tarixi abidələri, özünəməxsus memarlığı ilə burada yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Hazırkı dövrdə erməni işğalı nəticəsində təhlükəsizliyin təminatında yaranan problemlər, infrastrukturun dağıdılması səbəblərinə görə burada turizmin təşkili hələ ki mümkünsüzdür.

**Nəticə.** Azərbaycanın işğaldan azad edilən rayonlarında tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtulmuşdur. Erməni işğalçıları tərəfindən talan edilmiş regionun qədim və orta əsrlərdə inşa edilən nadir memarlıq abidələrinin erməni işğalçılarının tapdağı altında qalması, onlara Azərbaycanın tarixini saxtalaşdırmağa imkan vermişdir. Bu abidələr işğal müddətində ermənilər tərəfindən kütləvi surətdə dağıdılmış və erməniləşdirilmişdir. Aparılan tədqiqatlar Qarabağın memarlıq irsinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsinin olduğunu və ermənilərə aid olma iddialarının əsassız olduğunu göstərir. XX əsrin sonlarında Ermənistanın həyata keçirtdiyi münaqişə və müharibə nəticəsində Azərbaycanın sözü gedən bölgəsində memarlıq abidələrini yararsız vəziyyətə salmış, bir sıra hallarda isə (alban xristiyan məbədlərini və monastr komplekslərini) erməniləşdirmişdir. Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd və ermənilər tərəfindən işğal olunmuş zonada külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikintilər, orta əsr qəbiristanlıqları, məscidlər və s. əksər müsəlman abidələrinin hazırkı vəziyyəti qənaətbəxş deyil. Azərbaycan dövləti tərəfindən bu rayonlarda həyata keçirilən böyük yenidənqurma, o cümlədən bərpa və quruculuq tədbirləri nəticəsində onların tarixi-mədəni irsi və o cümlədən də memarlıq abidələri bərpa olunacaq. Bu da erməni işğalından qurtulan Qarabağ və ətraf rayonlarınmemarlıq abidələrinin turizm marşrutuna qoşulmasına imkan yaradacaq.

**Ədəbiyyat**


1. Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı. 2005
2. Əhmədov Elçin. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab. Bakı: Elmin İnkişafı Fondu. 2015
3. https://az.wikipedia.org/wiki/Mamay%C4%B1_bula%C4%9F%C4%B1#CITEREF%D0%90%D
4. https://azerforum.com/az/xerabete-cevrilmish-imaret-penaheli-xanin-sevimli-evi-qacarin-gecelediyi-mekan-xan-qizinin-dagilmish-mezari-reportaj
5. https://files.preslib.az/projects/azdiplomacy/a4.pdf
6. https://science.gov.az/az/news/open/15465
7. https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html
8. İsmayilov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələri.Bakı. 2016
9. Məmmədov Nahid. İşğal altındakı tarixi-dini abidələrimiz Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi. 2015
10. Авалов Э. В. Архитектура города Шуши и проблемы сохранения его исторического облика. Баку. 1977
11. Мамедова, Г.М. (2004) Зодчество Кавказской Албании. Баку: Чашыоглу.
12. https://dalidag.az/manset/1006-kelbecerin-lev-qalasi-x-xv-yuzilliklerin-mirasi-dusmen-tapdaginda.html
13. https://az.wikipedia.org/wiki/Hac%C4%B1_Qulular%C4%B1n_m%C3%BClk%C3%BC
14. https://ona.az/az/medeniyyet/veten-muharibesinin-zirvesi-tarix-seher-medeniyyet-seher-fotosessiya-29319